ADİL CƏMİL

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

I
cild

**ADİL CƏMİL**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**(şeirlər)**

**I**

**İKİ CİLDDƏ**

M.F.A... ...dına
Azərbaycan Milli
Kitabxanası

**"Elm və təhsil"**
**Bakı – 2014**

## DÜŞÜNƏN HEYKƏL

Hər yanı al-əlvan çiçək çələngi,
Füzuli düşünür daş paltarında.
Qürbətdə o qədər üşüyübdü ki,
Doğma vətəndə də qış paltarında.

Əllərim çırpınır, çatmır əlinə —
Əli əlimizdən üzülü babam.
Nə qədər boylanaq daş heykəlinə,
Nə qədər dinməsin Füzuli babam?..

Ölməzlik közərir söz ocağında —
O, ölməz sənətin özülü imiş.
Ən gözəl şerini yazan çağında
Hər şair bir azca Füzuli imiş…

Ayrılıb o gündən, gəlib bu günə -
Dönük dövranıyla küsülü babam.
Dalıb xəyallara düşünür yenə…
Görən nə düşünür Füzuli babam?..

*1986*